SUMQAYIT DÖVLƏT UNİVERSİTETİ

*Sumqayıt Dövlət Universitetinin*
*Elmi Şurasının 14 fevral 2024-cü il tarixli*
*iclasının (Protokol №5) qərarı ilə təsdiq edilmişdir.*

# 2024-2028-ci illər üçün BEYNƏLMİLƏLLƏŞMƏ SİYASƏTİ

**Sumqayıt – 2024**

## Ümumi müddəalar

Sumqayıt Dövlət Universitetinin (SDU) Beynəlmiləlləşmə siyasəti universitetin Beynəlxalq əlaqələr və əcnəbi tələbələr şöbəsi tərəfindən hazırlanan və tədris, tədqiqat, layihələr və digər fəaliyyətlər üzrə beynəlxalq əməkdaşlıqların təşkilini və təkmilləşdirilməsini tənzimləyən sənəddir. Beynəlmiləlləşmə siyasəti Sumqayıt Dövlət Universitetinin Elmi Şurasının 14 fevral 2024-cü il tarixli qərarı ilə təsdiq edilmişdir. Beynəlmiləlləşmə siyasəti "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununu, "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nı, "Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə 2019-2023-cü illər üçün Dövlət Proqramı"nı və Sumqayıt Dövlət Universitetinin 2024-2028-ci illər üzrə Strateji İnkişaf Planını rəhbər tutur. Beynəlmiləlləşmə siyasəti SDU-nun yenilənmiş Strateji İnkişaf Planının beşinci istiqamətinə uyğun sahələri əhatə edir.

## Beynəlmiləlləşmə siyasətinin məqsədi

Sumqayıt Dövlət Universiteti olaraq əsas məqsədimiz qlobal səviyyədə akademik və mədəni əməkdaşlıqları gücləndirməklə təhsilalanların və təhsilverənlərin beynəlxalq təcrübəsini artırmaq, təlim-tədris prosesinin və elmi-tədqiqatların keyfiyyətini beynəlxalq standartlara cavab verəcək formada yüksəltmək, fərqli ölkələrdən olan ali təhsil müəssisələri ilə qarşılıqlı əlaqəni təşviq etməklə geniş perspektiv təmin etmək və universitetin beynəlxalq dərəcədə tanınmasını və reputasiyasını artırmaqdır.

## Beynəlmiləlləşmə siyasətinin əsasını təşkil edən strateji hədəflər

**Sumqayıt Dövlət Universiteti:**

- **İngilis dilində tədrisin əhatə dairəsinin artırılması**nı hədəf olaraq müəyyənləşdirir. Universitetin akademik proqramlarında ingilis dilinin istifadəsini artırmaqla təhsilalanların və təhsilverənlərin qlobal səviyyədə ünsiyyət və tədqiqat həyata keçirməklə bağlı bacarıqlarının təkmilləşdirilməsi hədəflənir.

- **İkili diplom proqramlarının həyata keçirilməsini** hədəfləyir. Təhsilalanların beynəlxalq təhsil fürsətlərindən faydalana bilmələri üçün müxtəlif ölkələrlə əməkdaşlıq və nüfuzlu ali təhsil müəssisələri ilə ikili diplom proqramlarının həyata keçirilməsi hədəflənir.

- **Əcnəbi tələbə və müəllimlərin sayının artırılması**nı hədəfləyir. Universitetin beynəlxalq arenada cəlbediciliyini artırmaq məqsədilə əcnəbi tələbələrin və akademiklərin universitetdə tədris və tədqiqat proseslərində iştirakını sürətləndirəcək və asanlaşdıracaq proses və mexanizmlərin hazırlanmasını hədəfləyir. Xüsusilə əcnəbi tələbələr üçün adlı təqaüd proqramlarının tətbiqini universitetin əcnəbi cəlb etmə strategiyasının bir hissəsi olaraq qiymətləndirir.

- **Mübadilə proqramlarında iştirakın təşviq edilməsi**ni hədəfləyir. Təhsilalanların və təhsilverənlərin bilik və mədəni mübadilə imkanlarının artırılması məqsədilə tələbələrin və professor-müəllim heyətinin beynəlxalq mübadilə proqramlarında fəal iştirakının təmin edilməsi və dəstəklənməsi hədəflənir.

- **Beynəlxalq tədqiqat və digər istiqamətlər üzrə layihələrdə iştirakı təşviq** edir. Universitetin beynəlxalq arenada tanınmasını artırmaq və akademik və digər sahələr üzrə fəaliyyətləri çoxaltmaq və keyfiyyəti yüksəltmək məqsədilə istər tədris və tədqiqat, istərsə də digər istiqamətlər üzrə beynəlxalq layihələrdə, qrant proqramlarda və digər müvafiq fəaliyyətlərdə davamlı olaraq iştirak hədəflənir.

- **Beynəlxalq reytinqlərdə iştirak və mövqeyin davamlı olaraq yaxşılaşdırılması**nı hədəfləyir. Quacquarelli Symonds (QS), Times Higher Education (THE), UI GreenMetric World University Ranking, World University Ranking (WUR) kimi beynəlxalq universitet reytinqlərində istər dünya sıralamasında, istərsə də Avropa, Asiya (QS), sahə (Subject), təsir (Impact) kimi (THE) alt kateqoriyalarda təmsil olunma və hər il mövqeyin yaxşılaşdırılması üçün lazımi strateji addımların atılması təşviq edilir.

## Strateji hədəflərə nail olmaq üçün icra ediləcək fəaliyyətlər

### İngilis dilində tədrisin əhatə dairəsinin artırılması

***Fəaliyyətlər:***

- ✓ Əmək bazarının təhlili əsasında universitetdə qəbul aparılan ixtisas və/ və ya ixtisaslaşmalar üzrə prioritet istiqamətlərin müəyyənləşdirilməsi
- ✓ Müvafiq olaraq tədrisin ingilis dilində təşkil ediləcəyi **ixtisasların**/ixtisaslaşmaların seçilməsi və təşkili

***Hədəf indikator:*** İngilis dilində tədris aparılan ixtisas/ixtisaslaşmaların sayında artış

### İkili diplom proqramlarının tətbiqi

***Fəaliyyətlər:***

- ✓ Universitetin potensialına və əmək bazarının ehtiyaclarına uyğun olaraq ali təhsil pilləsinin bakalavriat və/və ya magistratura səviyyələri üzrə ikili diplom həyata keçirilə biləcək ixtisasların müəyyənləşdirilməsi
- ✓ Seçilmiş ixtisas/ixtisaslaşmalar üzrə tərəfdaş ola biləcək xarici ali təhsil müəssisələrinin müəyyənləşdirilməsi
- ✓ İkili diplom proqramlarının həyata keçirilməsi üçün müəyyənləşdirilən ali təhsil müəssisələri ilə danışıqların təşkili və qanunvericiliyin tələblərinə uyğun olaraq rəsmi sənədləşmənin həyata keçirilməsi

***Hədəf indikator:*** İkili diplom proqramı həyata keçirilən ixtisas/ixtisaslaşmaların sayında artış

- **Əcnəbi tələbə və müəllimlərin sayının artırılması**

***Fəaliyyətlər:***

- ✓ Əcnəbi tələbələrin cəlbi məqsədilə ölkə daxilində və ölkə xaricində təşkil olunan beynəlxalq təhsil sərgilərində iştirakın təmin olunması
- ✓ Əcnəbi tələbə qəbulunda coğrafi əhatənin genişləndirilməsi (əcnəbi tələbələrin gəldikləri bölgələrin/ölkələrin şaxələndirilməsi)
- ✓ Əcnəbi tələbələrin və professor-müəllim heyətinin sayının artırılması məqsədilə universitetin beynəlxalq əməkdaşlıq etdiyi müəssisələrin sayının artırılması, ikili müqavilələr və anlaşma memorandumlarının funksionallığının təmin edilməsi
- ✓ Əcnəbi tələbələri və professor-müəllim heyətini cəlb etmək üçün universitetin imkanlarını əks etdirən marketinq strategiyasının hazırlanması
- ✓ Əcnəbi tələbələr və professor-müəllim heyəti üçün təqaüd və maliyyə dəstəkli proqramlarının hazırlanması və tətbiqi
- ✓ Əcnəbi tələbə və professor-müəllim cəlbi üçün müraciət prosesini asanlaşdırmaq məqsədilə mentorluq proqramları daxil olmaqla təlimat və məsləhət xidmətlərinin təkmilləşdirilməsi
- ✓ Əcnəbi tələbələr və professor-müəllim heyəti üçün oriyentasiya proqramlarının, dil kurslarının və mədəni tədbirlərin təşkili
- ✓ Universitetin veb səhifəsinin və tanıtım materiallarının yenilənməsi və ingilis dilində hazırlanması

***Hədəf indikator*****:** əcnəbi tələbə və professor-müəllim heyətinin sayının və gəldikləri ölkələrə görə coğrafi müxtəlifliyin artması

- **Mübadilə proqramlarında iştirakın təşviq edilməsi**

***Fəaliyyətlər:***

- ✓ Xarici universitetlərlə ikitərəfli müqavilələr və tərəfdaşlıqlar qurmaqla beynəlxalq əməkdaşlığın inkişafı və akademik mobilliyin həyata keçirilməsi
- ✓ Tələbələr və müəllimlər üçün mübadilə proqramları haqqında məlumatlandırıcı seminarların, vebinarların və tanıtım tədbirlərinin təşkili
- ✓ Ölkə xaricində alınan dərslərin universitet tərəfindən tanınması üçün kredit transfer sisteminin formalaşdırılması
- ✓ Mübadilə proqramlarında iştirak edən tələbələr və müəllimlər üçün təqaüd, səyahət dəstəyi və yaşayış imkanlarının təmin edilməsi

***Hədəf indikator*****:** mübadilə proqramlarına müraciət edən tələbə və professor-müəllim heyətinin sayında artış

- **Beynəlxalq tədqiqat və digər istiqamətlər üzrə layihələrdə iştirakın təşviq edilməsi**

***Fəaliyyətlər:***

- ✓ Beynəlxalq tədqiqat fondları və layihə müraciətləri ilə bağlı proseslər haqqında infosessiyaların və təlimlərinin təşkili
- ✓ Xarici ali təhsil müəssisələri və elmi-tədqiqat institutları ilə strateji əməkdaşlığın qurulması
- ✓ Birgə tədqiqat layihələrinin hazırlanması və bu layihələrin maliyyələşdirilməsi üçün beynəlxalq tərəfdaşlarla əlaqələrin artırılması
- ✓ Beynəlxalq layihələrdə iştirak edən tədqiqatçılar üçün maliyyə dəstəyi proqramlarının təmin edilməsi
- ✓ Beynəlxalq jurnallarda dərc olunan məqalə və layihələr üçün mükafatlandırma və həvəsləndirmə proqramlarının təşkili

***Hədəf indikator*:** Xarici ali təhsil müəssisələri və elmi-tədqiqat institutları ilə əməkdaşlıq müqavilələrinin sayının artırılması, beynəlxalq tədqiqat və layihə müraciətlərinin sayının və qəbul nisbətinin artması

- **Beynəlxalq reytinqlərdə iştirak və mövqeyinin davamlı yaxşılaşdırılması**

***Fəaliyyətlər:***

- ✓ Universitetin güclü tərəflərinin müəyyən edilməsi və bu sahələr üzrə reytinq hədəflərinin müəyyənləşdirilməsi
- ✓ Beynəlxalq reytinqlərdə ön plana çıxan göstəricilərin nəzərdən keçirilməsi və müvafiq istiqamətlərdə performansın yüksəldilməsi üçün təkmilləşmələrin aparılması
- ✓ Universitetin beynəlxalq reytinqlərdə tanınmasını artırmaq üçün media və tanıtım kampaniyalarının təşkili

***Hədəf indikator:*** QS, THE, GreenMetric, WUR kimi beynəlxalq universitet reytinqlərində iştirak və mövqeyin yaxşılaşdırılması

## İcra strategiyaları və məsul struktur bölmələr

- **Rəhbərlik və idarəetmə**: Sumqayıt Dövlət Universitetinin 2024-208-ci illəri əhatə edən beynəlmiləlləşmə siyasətinin icrasına və monitorinqinə nəzarəti həyata keçirən məsul struktur bölmə(lər) və şəxslər müəyyənləşdirilir. Siyasət sənədinin icrasından birbaşa məsul olan struktur bölmə Beynəlxalq əməkdaşlıq və əcnəbi tələbələr şöbəsidir. Şöbə Beynəlxalq əlaqələr üzrə prorektorluğa tabedir.

- **Resursların bölüşdürülməsi:** Beynəlmiləlləşmə çərçivəsində xarici dildə (ingilis dili) tədrisin əhatə dairəsinin genişləndirilməsi, əcnəbi tələbələrin və professor-müəllim

heyətinin cəlbi, təhsilalan və təhsilverənlərin mobilliyi, beynəlxalq tədqiqatçılar ilə birlikdə birgə tədqiqatların həyata keçirilməsi və layihələrin icrası, beynəlxalq reytinqlərdə iştirak kimi təşəbbüslərin dəstəklənməsi üçün insan və maliyyə resurslarının bölgüsü aparılır. Beynəlmiləlləşmə siyasətinin icrası üzrə *insan resursları* əsasən Beynəlxalq əməkdaşlıq və əcnəbi tələbələr və Layihələrin idarəolunması şöbələrinin əməkdaşlarıdır. Əlavə olaraq, karyera xidmətləri ilə fəaliyyətlər Karyera və məzunlarla iş mərkəzi tərəfindən təşkil olunur. İkili diplom proqramlarının həyata keçirilməsi, kredit transferi kimi tədrislə birbaşa əlaqəli olan fəaliyyətlərin icrası Tədris Metodik Mərkəz və Magistratura və doktorantura şöbəsinin dəstəyi ilə təşkil olunur. Beynəlmiləlləşmə siyasətində qeyd olunan fəaliyyətlərin icrası ilə bağlı məlumatların əlçatanlığının təmin olunmasına Mətbuat və ictimaiyyətlə əlaqələr xidməti cavabdehdir. Beynəlmiləlləşmə siyasətində öz əksini tapan fəaliyyətlərin icrası ilə bağlı *maliyyə resurslarının* təmin olunması isə Texniki Təchizat Departamentinin məsuliyyətindədir.

- **Monitorinq:** Sorğular və digər əks-əlaqə mexanizmləri vasitəsilə beynəlmiləlləşmə ilə bağlı səylərin effektivliyi müntəzəm olaraq qiymətləndirilir. Fəaliyyətlərin monitorinqini birbaşa həyata keçirən struktur bölmə Keyfiyyət təminatı və strategiya şöbəsidir. Struktur bölmə Beynəlxalq əlaqələr üzrə prorektorluğa hesabat verməklə məsuldur.

- **Dövrü yenilənmə**: Beynəlmiləlləşmə siyasətində qlobal təhsil trendlərində baş verən dəyişikliklər, universitetin cari vəziyyəti, daxili və xarici maraqlı tərəflərin rəylərinə uyğun olaraq dövrü yenilənmə ehtiyacı nəzərə alınır. Beynəlmiləlləşməyi təşviq etmək üçün yeni və fərqli strateji prioritetlər qiymətləndirilir və tətbiq edilir.